**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 26 Yanvar 2018-ci il tarixində Agentlik tərəfindən Bakı şəhəri ərazisində keçirilmiş təcili təxirəsalınmaz əməliyyat barədə

# OPERATİV MƏLUMAT

**26 Yanvar 2018-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən Agentliyə Bakı şəhəri, Səbail rayonu ərazisində Şıx çimərliyində mərminin tapılması barədə məlumat daxil olmuşdur.**

**Məlumata əsasən Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu dərhal həmin əraziyə göndərilmişdir.**

**Agentliyin mütəxəssisləri tərəfindən yuxarıda adı qeyd olunmuş əraziyə baxış keçirilmiş, aparılan təcili təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində 20 ədəd MRV-U partladıcısı aşkar olunmuş, götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınmışdır.**

**Aşkar olunmuş partladıcıların ətrafında 100 kv.m əraziyə yeraltı baxış keçirilmiş, bundan əlavə təhlükəli əşya və qurğu aşkar edilməmişdir.**

***Bu əməliyyat Böyük Britaniya Hökuməti tərəfindən maliyyələşdirilmişdir.***

Funded by UK Government

---

**Ümumilikdə Agentlik tərəfindən 01 yanvar – 26 Yanvar 2018-ci il tarixlərində Ağdam, Ağstafa, Tərtər, Qazax, Naftalan, Goranboy, Lənkəran rayonları və Bakı, Sumqayıt, şəhərləri ərazisində 4 ev və həyətyanı sahəyə, 1 əkin sahəsinə, 3 otlaq sahəsinə, su kanalına, çimərlik ərazisinə, RPŞ-nin inzibati ərazisinə, beton zavod və bazar ərazisinə baxış keçirilmiş, 72 ədəd partlamamış hərbi sursat aşkar olunaraq zərərsizləşdirilmiş, 9 140 kv.m ərazi yoxlanılmışdır.**







